**Enerji Məsələlərini Tənzimləmə Agentliyi üçün**
**“Webex meetings” proqram təminatından istifadə hüququna dair “5 host” üçün bir illik lisenziyanın satın alınması məqsədilə**
**AÇIQ TENDER ELAN EDİR:**

| Tender 1 (bir) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| **Lot 1** | Enerji Məsələlərini Tənzimləmə Agentliyi üçün “Webex meetings” proqram təminatından istifadə hüququna dair “5 host” üçün bir illik lisenziyanın satınalınması | **100,00** |

Bu Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinin tələblərinə uyğun olaraq yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə, açıq tender üsulu ilə elektron satınalma vasitəsilə keçirilir.

Bu Tender üzrə iddiaçılar (bundan sonra - **iddiaçılar**) https://www/etender.gov.az - dövlət satınalmalarının vahid internet portalına (bundan sonra – **Portal**) daxil olub və tender haqqında ətraflı məlumatı əldə edə, Tenderlə bağlı suallarını Portalda satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar bu Tender əsasında bağlanması nəzərdə tutulan satınalma müqaviləsini (bundan sonra – **Müqavilə**) yerinə yetirmək üçün kifayət qədər maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar bu Tenderdə müəyyən edilmiş lot üzrə hesablanmış məbləğdə iştirak haqqını Portal vasitəsilə elektron ödəniş sistemində yaradılmış müvəqqəti hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu Portal vasitəsilə əldə edə və təkliflərini elektron qaydada təqdim edə bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (012) 598-16-53**

**Əlaqələndirici şəxs: Tender Komissiyası** (*office@regulator.gov.az*).

İddiaçı Tenderdə iştirak etmək üçün aşağıda qeyd olunan sənədləri Portal vasitəsilə təqdim etməlidir:

- *Tenderdə iştirak üçün ərizə, iştirak haqqının ödənilməsi barədə bank sənədi (ərizə scan edilərək “tələb olunan hüquqi sənədlər” xanasında yerləşdirilməlidir);*
- *özünün tam adı, hüquqi statusu, hüquqi şəxs və ya digər təşkilat olan iddiaçının nizamnaməsi (əsasnaməsi), dövlət reyestrindən çıxarışı, vergi şəhadətnaməsi (VÖEN), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *son bir ildəki (əgər bir ildən az müddətdir fəaliyyət göstərirsə bütün fəaliyyəti ərzində) maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə, cari tarixə məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarına və son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinəyetirilməməsi hallarının mövcud olmamasına dair arayış;*
- *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən “son bir il ərzində dövriyyəsi haqqında arayış”;*
- *son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (mənfəət vergi bəyannaməsi);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin ümumi qiymətinin 1 %-i həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır);*
- *müqavilənin icrasına kifayət edəcək potensialı, maddi-texniki bazası, müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, etibarlılığının olmasına dair arayış, təsdiqedici sənədlər toplusu (əsas şərtlər toplusunun 3-cü*

*bölməsində göstərilən xüsusi formaya uyğun);*

— *Tender təkliflərinin qiymətləndirilməsinə dair əsas şərtlər toplusunun 3-cü bölməsində tələb olunan bütün sənədlər (meyarlar üzrə tərtib olunacaq arayışlar əsas şərtlər toplusunun 3-cü bölməsinin Əlavə 1-də göstərilən formada hazırlanmalıdır).*

Tender təklifi Azərbaycan dilində tərtib edilməli, xarici dildə olan tender sənədləri isə (əgər olarsa) Azərbaycan dilinə tərcümə olunmalıdır.

Bu Tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair hüquqi sənədlərin skan və ya elektron versiyaları Portalda avtomatik qaydada müəyyən edilmiş vaxtdan gec olmayaraq iddiaçılar tərəfindən Portala yüklənməlidir. Qeyd olunan sənədlərin həmin vaxtdan gec təqdim edilməsi şəxsin iddiaçı qismində qeydə alınmaması üçün əsasdır.

Tender təklifi və bank təminatı sənədləri 16 noyabr 2022-ci il tarixə saat 18:00-dək Portal vasitəsilə təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim edilmiş tender təklifləri satınalan təşkilat tərəfindən qəbul olunmur.

Portala yüklənmiş bütün tender təklifləri 17 noyabr 2022-ci il tarixdə saat 11:00-da Portal vasitəsi ilə açıqlanacaqdır. İddiaçılar tender nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**Qeyd:**

*1. Tender təkliflərinin qiymətləndirilməsi əsas şərtlər toplusunun 3-cü bölməsində nəzərdə tutulmuş meyarlara əsasən tender zərfləri əsasında aparılacaqdır.*

*2. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi, yazışmalar, sual-cavablar və digər hərəkətlər yalnız Portal vasitəsilə həyata keçirilir.*

*3. İddiaçı əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam tanış olaraq, tender təklifi təqdim etməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının həmin şərtlər toplusu ilə tanış olmaması onun əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi üçün əsas ola bilməz.*

**Tender Komissiyası**